**R.İ.MƏMMƏDOV**
*magistrant*
*e-mail: mammadov.ramil.2001@atmu.edu.az*

**Azərbaycan Turizm və Menecment Universiteti**
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

# QUBA RAYONUNDA MÖVCUD OLAN AZSAYLI ETNİK QRUPLAR

***Açar sözlər:*** *etnik qruplar, Qrız, Xınalıq, Buduq, Əlik, Qırmızı Qəsəbə*
***Ключевые слова****: этносы, кыргызы, хыналыг, будуг, алик, красная слобода.*
***Key words****: ethnic groups, Qriz, Khinalig, Budug, Alikli, Red Settlement*

Azərbaycan təkcə təbii gözəlliyi, tarixi abidələri ilə deyil həm də, respublika ərazisində yaşayan etnik qrupların çoxluğu ilə digər ölkələrdən seçilir. Bu etnik müxtəlifliyin illərdir sülh və əmin amanlıq içində yaşaması və dostcasına qarşılıqlı əlaqəli şəkildə mövcudluğu ölkənin ədalətli idarə olunmasının nəticəsində mümkün olmuşdur. Bu etnik qruplar ölkə ərazisində qeyri bərabər paylanmış və bütün ölkə ərazisinə səpələnmişdir. Etnik qrupların çoxluğu bəzi regionlarda özünü daha çox göstərir. Bunun da əsas səbəbi tarixi proseslər – köçürülmə siyasətləri, müharibələr, sürgünlər və s.-dir. Məhz bu səbəbdən bəzi etnik qruplar pərakəndə şəkildə səpələnmiş, bəziləri isə sıx halda kompakt məskunlaşmışdırlar. Azərbaycan respublikası ümumiyyətlə, ərazisində yaşayan xalqların sayına görə çox zəngin ölkədir. Bu etnik zənginlik çaları özünü bəzi bölgələrdə, bəzi rayonlarda daha qabarıq şəkildə büruzə verir. belə ki, bəzi regionlarımızda etnik müxtəliflik daha çoxdur.

Azərbaycan əlverişli təbii-coğrafi mövqeyə malik olan bir ölkədir. Ərazisində yaşayan etnik birliklərin sayına görə Quba ölkə rayonları arasında Abşerondan sonra ikinci yerdədir. 2009-cu ildə keçirilmiş siyahıyaalınmaya əsasən əhalinin 79,2%-ni azərbaycanlılar, 9,1%-ni tatlar, 5,9%-ni ləzgilər, 1,8%-ni yəhudilər, 1,4%-ni xınalıqlılar, 1,4%-ni türklər, 0,5%-ni qrızlılar və 0,7%-ni digər millətlərin nümayəndələri təşkil edir. Bundan əlavə rayon ərazisində buduqlular, qrız etnosuna aid edilən hapıtlılar, ceklilər, əliklilər, yerguclülər kimi nadir etnik qruplar da yaşayır. Burada yaşayan hər bir azsaylı etnik qrupun özünəməxsus adət - ənənələri, dünyada heç bir dil ailəsinə aid olmayan dilləri vardır. Bu xalqların hər birinin fərqli dildə danışması buraya gələn tarixçiləri və turistləri təəccübləndirmişdir. (1, s.15)

Xınalıq Azərbaycanın qədim kəndidir. Kənd Quba şəhərindən yeni yolun kənarında bir saatlıq məsafədə yerləşir. Xınalıq öz mədəniyyətini və adət-ənənələrini, hətta öz dilini inkişaf etdirib. Kəndin 5000 ildən çox yaşı var. Əsrlər boyu bu kənd hündür dağlar və təhlükəli qayalarla sivilizasiyanın qalan hissəsindən ayrılıb. Təcrid nəticəsində kəndlilər heç bir başqa dil ailəsinə aid olmayan özünəməxsus dillərini, heç yerdə rast gəlinməyən adət və ənənələrini qoruyub saxlaya bilmişlər.

Kənddə 4 ailə birliyinə (nəsilə) bölünmüş 2000-ə yaxın əhali yaşayır. Hər nəslin öz qəbiristanlığı, xalça və geyim naxışları var. Xınalıq kəndliləri evlərini üst-üstə tikirlər. Ümumiyyətlə, onlar çoxmərtəbəli evə bənzəyir, burada bir evin damı onun üstündə tikilmiş evin həyətidir. Kənddə hər birinin təxminən 200-300 illik yaşı olan 360 daş ev var. (3)

Xınalıq sakinləri çox dindardırlar. Kənddən çox uzaqda müqəddəslərin qəbirləri, mağaralar, öyrənilməmiş arxeoloji abidələr kimi çoxlu müqəddəs yerlər var. Onların bəziləri hələ orta əsrlərdə tikilmişdir. Xüsusi tədqiqatçılar Xıdır Nəbi türbəsini, Şeyx Şəlbuza məscidini, Əbu Müslim məscidini (12-ci əsr) və Pirchomyard məscidini (1388) tapa bilərlər. Xınalıq Tarix-Diyarşünaslıq Muzeyində yerli mədəniyyət qorunub saxlanılır, burada ziyarətçilər ənənəvi həyatda istifadə olunan əşyalar və yerli kənd sakinlərinin tarixi və adət-ənənələri ilə bağlı kiçik eksponatlar tapa bilərlər. (7, s.135)

Qubanın təbii ekzotikliyi ilə seçilən destinasiyalarından biri də Qrız kəndidir. Qudyalçayın sahilində yerləşən Qrız kəndi dəniz səviyyəsindən 2000–2050 m hündürlükdə yerləşir. Kəndə getmək digər dağ kəndlərinə nisbətən daha çətindir. Bunun da əsas səbəbi dar kənd yollarıdır. Bu yollar xüsusilə də yağışlı və qarlı günlərdə daha çox təhlükəli olur. Çünki bura Azərbaycanın ən çox qar düşən ərazilərindəndir, həmçinin yağıntılı dövrlərdə kəndə gedən cığır daha sürüşkən olur. Qrız kəndinin ərtaf ərazilərində bir necə mağara, bulaq, çay və şəlalə var. (5, s.57)

Qubada turizmin inkişafı üçün geniş potensiala malik olan kəndlərdən biri də Əlik kəndidir. Bu kənd Yan silsilənin ətəyində, qudyalçayın sağ sahilində yerləşir. Bu kənd də xınalıqlılarda və qrızlarda olduğu kimi özünəməxsus dilə və adət ənənəyə malikdir. Strabonun əsərində deyilir ki, azərbaycan ərazisində 26 albaniya tayfası yaşayır və bu tayfaların hər birinin ayrıca dili və mədəniyyəti vardır. Güman edirəm ki, Qafqaz dil qrupuna aid olan bu etnik qruplar da həmin albaniya tayfalarındandır. Bəzi alimlərin fikrincə bu kəndin adı “dağlarda çuxur, çökəklik” mənasına gələn, qədim türk dillərində işlənən “alık” sözü ilə bağlıdır. Bu fikir kəndin coğrafi yerləşməsi iləvdə uyğunluq təşkil edir. (2, s.45)

Qubada ucqar dağ kəndlərində turizm potensialı daha yüksəkdir. Buradakı kəndlərin əksəriyyəti yüksək dağlıq ərazilərdə yerləşir. Bu kəndlərə misal olaraq Haput kəndini göstərmək olar. Bu kənd dəniz səviyyəsindən təxminın 2000 metrə yaxın yüksəklikdə, dağların qoynunda yerləşir. Haputlular da Xınalıqlılar kimi Şahdağ xalqalarına mənsubdur. Bu qrupa mənsub olan ikinci ən çoxsaylı xalq da elə Haputlulardır. Bu kəndin sakinləri əsasən köçəri maldarlıqla məşğuldur. Qış aylarında əhalinin bir qismi kənddən kənara, qışlaqlara gedirlər. Onların qışlaq əraziləri əsasən Hacıqabul və yaxınlıqdakı digər düzənlik rayonlarıdır. 2021 ci ilin qış köçündə Azərbaycan Dövlət Turizm Agentliyi də bu tərəkəmə xalqı köç zamanı müşaiət edərək bu barədə məlumat toplamışlar. Bunun əsas məqsədlərindən biri də Şahdağ xalqlarını və onların həyatını UNESCO-nun mədəni irs siyahısına salmaqdır. Yox olmaq təhlükəsi ilə qarşı-qarşıya olan bu etnik qruplar və onların mədəniyyəti sözsüz ki Azərbaycanın mədəni zənginliyinə, tolerantlığına və əsrarəngizliyinə sübutdur.

Quba - Xaçmaz regionunda yaşayan etnik qruplardan biri də Buduqlulardır. Buduqlular da Şahdağ xalqlarına aiddir. Qədim mənbələrdə verilən toponimik məlumatlara və etnoqrafik materiallara əasən onlar da erkən orta əsrlərdə Sasani hücumlarından qorunmaq üçün Qubanın hündür dağlıq ərazilərinə üz tutmuşdurlar. Buduqluların məskunlaşmaları ilə bağlı bu faktlara və yerli əhalinin danışdığı əhvalatlara əsasən bu nəticəyə gəlmək olar ki, onlar ilk öncə dağətəyi ərazidəki Bed (Bəd) kəndinin yanındakı meşədə yaşamışlar. bu toponimə həm də Musa Kalankatlının “Alban tarixi” əsərində də rast gəlirik. Bəzi mülahisələr görə Buduqluların əcdadları da məhz elə “Bed” adlanırmış. Eyniadlı mahal da mövcud olmuş və xınalıqlıların əcdadları “Qat” həmçinin Hapıtlıların əcdadları “Hər” tayfalarının yaxınlığında yerləşmişdir. Bu xalqlar hal hazırda da qonşu kəndlərdə yaşayırlar. Bu ərazidə yaşayan etnik birliklərin məskunlaşma tarixləri arasında müəyyən uyğunluqlar vardır. Bunlara əsasən deyə bilərik ki, Buduqlular da indiki Şəki-Zaqatala ərazisindən köçmüş Musa Kalankatlının kitabında bəhs etdiyi 26 Alban tayfasından biridir. Həmçinin onların əcdadlarının Bed mahalından gəldiyini və bu adı Qubada məskunlaşdıqları əraziyə də verklərini söyləyə bilərik. Buduqlular da Xınalıqlılar kimi bir neçə ailə qruplarına – nəsillərə bölünür. Hər nəslin özünəməxsus adət ənənələri, geyimləri və qəbiristanlıqları olur. Son zamanlarda Buduqlular əkinçilik üçün əlverişli torpaqların azlığı səbəbi ilə öz dədə-baba torpaqlarını tərt edərək daha əlverişli ərazilərə köçmüşlər. (6, s.78)

Quba rayonunda yaşayan xalqlardan biri də yəhudilərdir. Yəhudilərin Qubaya gəlişi Nadir şahın dövründə olmuşdur. O qubaya hücum edərkən özü ilə gətirdiyi Yəhudilər əvvəlcə Küpçal və Qələdüz kəndləri arasında yerləşdirilir. Burada təhlükədə olan yəhudlərin ağsaqqalları o vaxtki Quba xanı Hüseynəli xanın sarayına xahişə gəlirlər. Hüseynəli xan onların istəyini nəzərə alaraq onları bugünki “Qırmızı qəsəbə”-nin şimal hissəsində

yerləşdirir. Burada gecə hücumları, qəfil basqınlar olduğundan Fətəli xan 1765-ci ildə onları indiki qəsəbə ərazisinə köçürür. Fətəli xanın dəstəyi ilə altı gün ərzində buraya yerləşən Yəhudilər Fətəli xanın buraya gəlişi zamanı onun qarşısına duz-çörəklə çıxırlar. Hal hazırda həmin yerdə Yəhudilərin buraya 6 günə yerləşdirilməsiylə bağlı "Altı Günbəz Sinaqoqu" yerləşir. Bu qəsəbə "Qafqazın Yerussəlimi" adlanır. Burada yaşayan dağ Yahudiləri özlərini "cuğur" adlandırırlar və fars dilinə oxşayan ivrid dilində danışırlar. (4)

## Ədəbiyyat


1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Qafqaz Albaniyasının etno-mədəni irsi" №2 məqalələr toplusu
2. Məclis Şəmsəddinov. "Şah dağın ziynət kəməri". Bakı, "Nasir" nəşriyyatı, 2002
3. Mədəniyyət qəzeti, "Dağların tacı – Xınalıq" , 4 sentyabr 2009.
4. Məhəmmədəli Qəribli "Azərbaycanda yəhudi icması" Bakı Xəbər qəzeti - 2021. - 3 mart. - № 40
5. Şıxbala Qrızlı (Süleymanov). "Qrızlar və Qrız dili" Bakı: 2002.
6. Vaqif Piriyev, Aydın Səlimzadə, Zavər Qafarov "Buduq və buduqlular" Bakı: 1994, Sabah nəşriyyatı
7. Yusif İsmayıl. "Bir nağıldı Xınalıq", Bakı: 1992, Gənclik nəşriyyatı,


**Р.И.Мамедов**

**Этнические меньшинства в Губинском районе**

***Резюме***

Азербайджан является одной из стран, выбранных на Кавказе по количеству этнических групп, проживающих на его территории. Каждый из редких этносов, проживающих здесь, имеет свой язык и традиции. К этническим меньшинствам Губы относятся евреи и шахдагцы. Эти народы проживают в компактных условиях в регионе. Народы Шахдага – это народы хыналыг, грыз, алик, хапут, будуг и ергудж, поселившиеся в высокогорных районах Шахдага. Каждый из этих народов проживает в одноименных деревнях.

**R.I.Mammadov**

**Minority ethnic groups in Guba region**

***Summary***

Azerbaijan is one of the countries selected in the Caucasus for the number of ethnic groups living in its territory. Each of the rare ethnic groups living here has its own language and traditions. Ethnic minorities in Guba include Jews and Shahdag peoples. These peoples live in compact conditions in the region. The peoples of Shahdag are the people of Khinalig, Gryz, Alik, Haput, Budug and Yerguj, who settled in the high mountainous areas of Shahdag. Each of these peoples lives in villages of the same name.

*Rəyçi: s.e.f.d., dos. R.Z.Rəhimli*

*Redaksiyaya daxil olub: 31.05.2022*